Aqrar Xidmətlər Agentliyi

# Pambıqda tor gənəsi

## (Tetranychus urticae) (Koch)



088-588

axa.gov.az

## Zərərverici haqqında

Torpaq-iqlim şəraitindən asılı olaraq tor gənəsi ildə orta hesabla 10-15 nəsil verir. Havanın kəskin soyuması güclü yağışlarla müşahidə olunduqda gənəciklərin sayı əhəmiyyətli dərəcədə azalır, 7-10 gündən sonra isə yenidən artmağa başlayır. Pambıqda gənələr yarpaqların alt tərəfində və çiçək altlığında toplaşır. Zədələnmiş yarpaqların üst tərəfində qırmızı ləkələr əmələ gəlir. Yarpaqlar qızarır, sonra qonurlaşıb tökülür. Sahədə pambıq bitkiləri tor gənəsi ilə güclü sirayətləndikdə və ona qarşı müvafiq mübarizə tədbirləri həyata keçirilmədikdə pambıq məhsulunun 35-50%-i məhv olur.

## Mübarizə tədbirləri

Aqrotexniki mübarizə

- Pambıq məhsulu yığıldıqdan sonra quzapayı və başqa bitki qalıqları yığılaraq sahədən çıxarılmalıdır.
- Pambıq əkinlərindən sonra sahələrdə dərin şum aparılmalı (27-30 sm) və qış aratı edilməlidir.

-Bütün vegetasiya dövründə sahələrdə, mərzlərdə və arx kənarlarındakı alaq otları məhv edilməlidir.

Kimyəvi mübarizə

**-** Təsiredici Abamektin (0,5l/ha), Etoksazol (0,5l/ha), Sipiromesifen (0,4l/ha) olan preparatlar ilə kimyəvi mübarizə tədbirləri aparılmalıdır.



## Zədəsi